UOT: 327
https://doi.org/10.30546/3006-0346.2025.3.87.518

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI EKOLOJİ TERRORU VƏ NƏTİCƏLƏRİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: babashlisanubar@yahoo.com*

Ermənistan beynəlxalq hüququn prinsiplərinə, BMT və ATƏT-in qərar və qətnamələrinə məhəl qoymadan işğal etdiyi ərazilərimizdə dünya dövlətləri qarşısında görünməmiş vəhşiliklər törədib. İşğalçı dövlət tərəfindən həyata keçirilən qanunsuz iqtisadi fəaliyyət 1949-cu ildə qəbul edilmiş "Müharibə dövründə mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının, "Quru müharibəsi qanunları və adətləri haqqında" IV Haaqa Konvensiyasının, habelə insan hüquqları sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozub. Avropanın vəhşi təbiətin və təbii yaşayış yerlərinin mühafizəsi haqqında Bern Konvensiyasının Baş katibinə, Bioloji Müxtəliflik Konvensiyasının İcraçı Katibinə, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyinə, Təbiəti Mühafizə üzrə Beynəlxalq Birliyin prezidentinə məsələ ilə bağlı rəsmi müraciətlər edilib.

İşğal olunmuş ərazilərdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi beynəlxalq təşkilatların diqqətinə çatdırılmış, lakin Ermənistan öz çirkin əməllərinə son qoymayıb. Ermənilər tərəfindən həyata keçirilən ekoloji terrorda Fransa, İran, ABŞ, Rusiya, İsveçrə, Almaniya, Böyük Britaniya, Hollandiya və bir sıra digər dövlətlər də daxil olmaqla 20-dən çox ölkənin şirkətləri iştirak etmiş, Azərbaycanın təbii sərvətlərini vəhşicəsinə istismar edilmişdir. İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət və təbii sərvətlərin istismarı ciddi ekoloji problemlərə səbəb olmuşdur. Belə ki, işğal olunmuş torpaqlarımızda meşələrin məhv edilməsi və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi və yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub torpaq sahələri deqradasiyaya uğramışdır. İşğal olunmuş ərazilərdə 30 ildə təqribən 260 min hektara yaxın meşə sahəsi sürətlə azalmış, qoz, palıd, eldar şamı, xurma və digər xüsusi mühafizə olunan qiymətli ağac növləri, minlərlə hektar ərazini əhatə edən meşələr odun tədarükü üçün kəsilmiş, Qarabağın nadir meşə resursları mebel, məişət avadanlıqları, silah istehsalı üçün Ermənistana daşınmışdır.

Kəlbəcər, Laçın, Tərtər, Ağdamda qızıl, gümüş, mis, molibden, civə yataqları, Cəbrayıl, Kəlbəcər, Laçında dəmir, xrom, Tərtər və Kəlbəcərdə kükürd, Ağdam, Füzuli, Cəbrayıl ərazilərindəki qum, çınqıl, gil və digər faydalı qazıntı yataqlarında işğalçı Ermənistan tərəfindən qeyri-qanuni və intensiv şəkildə hasilat işləri aparılmış, faydalı qazıntılar, əlvan və qara metallar, mineral sular, həmçinin digər şirin su resursları, meşə fonduna daxil olan torpaqlar amansız istismar olunmuş, flora və fauna məhv edilmişdir. Kəlbəcər rayonunun ərazisində yerləşən, Söyüdlü, Ağduzdağ və Tutxun qızıl yataqları Ermənistan tərəfindən intensiv şəkildə talan edilmişdir. Ermənistan hökuməti 1998-ci ildə Kanadaya məxsus "Canadian First Dynasty Mines Ltd" və Hindistana məxsus "İndian Sterlite Gold Ltd" şirkəti ilə müqavilə bağlayaraq Söyüdlü yatağından qeyri-qanuni şəkildə qızıl hasil etmişdir. İşğalçı Ermənistan hasilatların həyata keçirilməsi zamanı ekoloji tələblərə heç bir formada əməl etməyərək, Azərbaycan qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş istehsalat həcmlərini dəfələrlə aşıb, zəhərli tullantılar yerli sututarlara, çaylara axıdılıb.

Azərbaycan Respublikası 44 günlük müharibədə parlaq qələbə qazanaraq öz suverenliyini və ərazi bütövlüyünü bərpa edib. 2020-ci ildə qələbə əldə edəndən sonra Azərbaycan Respublikası işğaldan azad etdiyi torpaqlarda böyük quruculuq, bərpa və yenidənqurma işlərinə başlayıb. Bu işlər çərçivəsində 2022-ci ilin 3 dekabr tarixindən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıb. Monitorinq zamanı faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və dəmirli mis-molibden yataqlarına yerində baxış və müxtəlif istiqamətlər üzrə monitorinq, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə,

yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Lakin heyət Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşiblər [9]. Beləliklə, nəzərdə tutulan ilkin baxış və monitorinq Rusiya sülhməramlıların nəinki lazımı şərait yaratması, əksinə, bu prosesin qəsdən pozulması ssenarisində iştirakına görə baş tutmayıb. Səbəb separatçıların "lideri" Ruben Vardanyanın həmin yataqların Girişində "yerli ermənilərin" nümayişini təşkil etməsi olub. Daha sonra yataqların istismarı kosmik görüntülərə əsasən aparılan monitorinqlər nəticəsində müəyyənləşdirilib [7].

Ermənilərin ekoloji terroru və təxribatı cavabsız qalmayıb. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Laçın-Xankəndi yolunda etiraz aksiyası başlayıb. Etiraz aksiyası Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə Girişinə maneçilik törədilməsi səbəbindən təşkil olunmuşdur. Ekofəallar və gənc könüllülərin etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisi olub. Ekofəallar və gənc könüllülər "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!", "Берегите природу!", "Экоциду нет! Мониторингу да!" şüarlarını səsləndiriblər. Ekofəallar və gənc könüllülər sülhməramlı kontingentin komandanı general Andrey Volkovla görüş tələb etsələr də, sülhməramlı kontingentin komandanı ekofəalların qarşısına çıxmayıb.

Ekofəallar və gənc könüllülərdən 10 nəfər aprelin 28-də Azərbaycanın dövlət nümayəndələrinin dəvəti əsasında növbəti görüşdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yarandığını qeyd edib. Buna görə də iştirakçılara aksiyanın dayandırılması bir daha təklif olunub. Ekofəallar bildiriblər ki, Laçın-Xankəndi yolunun başlanğıcında sərhədçilərimiz tərəfindən sərhəd-nəzarət mexanizminin təhlükəsizliyinin yaradılması, bununla da yolda hərəkət üzrə şəffaflığın, qanunun aliliyinin və hərəkətin təmin edilməsi onları çox sevindirib. Onlar bildiriblər ki, ekofəallar və gənc könüllülər tələblərinə qismən nail olduqlarına görə, dövlət nümayəndələri tərəfindən dəfələrlə edilən müraciətləri nəzərə alaraq, 2023-cü il aprelin 28-də saat 18:00-dan etibarən etiraz aksiyanı müvəqqəti dayandırmaq barədə qərar qəbul ediblər. Aksiyaçılar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasına, ekoloji və digər fəsadlarla bağlı monitorinqin keçirilməsinin təmin olunmasına dair sülhməramlı kontingentin komandanlığından tələbləri qüvvədə qalır və bu tələblər yerinə yetirilməyəcəyi halda aksiyanın yenidən bərpa olunması hüququnu saxladıqlarını bildiriblər. Beləliklə, 28 aprel 2023-cü ildə Laçında gömrük məntəqəsinin qurulması nəticəsində ekofəallar və gənc könüllülərin 138 gündür davam edən aksiya mühüm nəticələrə nail olmaqla dayandırılıb [5].

Qeyd etmək lazımdır ki, 138 gün davam etmiş etiraz aksiyası birmənalı şəkildə beynəlxalq hüquq normalarına əsaslanırdı, beynəlxalq konvensiyaların normalarını özündə əks etdirirdi. Eyni zamanda, bu etirazlar Azərbaycan xalqının milli maraqlarının ifadəsi idi. Azərbaycanın vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekofəalların, gənc könüllülərin davam etdirdiyi aksiya haqlı tələblərə söykənirdi.

Ekofəallar və gənc könüllülərin Laçın - Xankəndi yolundakı etirazları inkaredilməz bir faktı daha da önə çıxartdı ki, sülhməramlı kontingentin yerləşdiyi ərazilər Azərbaycan torpaqlarıdır və həmin torpaqlara Azərbaycan nəzarət edir. Bu fakt ekofəalların aksiyasında növbəti dəfə sübut olundu. Belə ki, Azərbaycanın Qarabağdakı mədən-yataqlarında monitorinq aparmaq istəyinin qarşısının separatçılar tərəfindən təxribatla alınması cəhdi yenidən üçtərəfli Bəyanatı aktuallaşdırdı. Həmçinin Üçtərəfli Bəyanata əsasən Azərbaycan torpaqlarında yerləşdirilən Rusiya sülhməramlıların yeganə vəzifəsinin razılaşmanın həyata keçirilməsinə nəzarətin effektivliyini artırmaq üçün atəşkəsə nəzarət etmək olduğunu xatırlatdı. Azərbaycanın ayrılmaz hissəsi olan Xankəndi və ətraf bölgədə olan sülhməramlılara ermənilərlə deyil, məhz rəsmi Bakı ilə ortaq hərəkət etməyə borclu olduqlarını başa saldı. Aprelin 23-

də Laşın-Xankəndi yolunun başlanğıcında qoyulan sərhəd-buraxılış məntəqəsi isə Laçın yoluna nəzarət mexanizmini daha da gücləndirib. Bu yoldan qeyri-qanuni daşınma, o cümlədən silah-sursat daşınmasının qarşısını alıb.

Azərbaycan əraziləri işğaldan azad olunmasına baxmayaraq, Ermənistanın Azərbaycana qarşı ekoloji terroru bu gün də davam edir. Mənbəyini Zəngəzur dağ silsiləsindən, əsasən Ermənistan ərazisindən götürən Oxçuçay erməni terroruna tuş gəlmiş təbii sərvətlərimizdən biridir. Torpaqlarımızın işğaldan azad edildikdən sonra Oxçuçayın suyunun çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə monitorinqlər keçirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılan monitorinqlər göstərir ki, Oxçuçayın çirklənməsi digər transsərhəd çaylarına nisbətən daha yüksəkdir. Çayda ilin ilk üç ayı ərzində aparılan monitorinqin nəticələrinə görə, nikelin miqdarı 7, kadmiumun 5, dəmirin 4, mis-molibdenin isə 2 dəfə normadan artıq olub [4].

Cenevrədə yerləşən Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitutunun (Global Institute for Water, Environment and Health, GIWEH) təşəbbüsü ilə Oxçuçayın Ermənistanın dağ-mədən şirkətləri tərəfindən çirkləndirilməsi problemi BMT-nin 48-ci İnsan Hüquqları Şurasının ümumi mübahisələr sessiyasında müzakirəyə çıxarılıb. Bu barədə Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitutunun əməkdaşı Noah Curry çıxış edib. Qurumun verdiyi bəyanatda deyilir ki, GIWEH bu addımla İnsan Hüquqları Şurasının və beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın Zəngilan rayonunun ərazisindən keçən və Araz şayına tökülən Oxçuçayda yaranmış ekoloji təhlükələrə və kritik duruma cəlb etmək istəyir. Qeyd edilib ki, suyun çirkləndirilməsi, tullantıların idarə edilməsi bölgədə çox ciddi bir problemə çevrilir və beynəlxalq birlik çirklənmənin qarşısının alınması və nəzarət edilməsi mexanizmini hazırlamalıdır [1].

Əkərək mis-molibden kombinatının ağır metal tərkibli mədən tullantıları Kərçivan çayı vasitəsilə Araz çayına axıdılır. Kombinatın Davazam tullantı anbarının suyu Araz çayına tökülür. Çirkləndiricilər tənəffüs problemləri, nevroloji və xərçəng də daxil olmaqla bir sıra xəstəliklər yaradır. Eyni zamanda, Cənubi Qafqaz regionu üçün vacib içməli su mənbəyi olan Bərgüşad çayı da ciddi şəkildə çirklənir. Bu, onu göstərir ki, Hayastanın dağ-mədən sənayesi Azərbaycanın ekosisteminin sıradan çıxmasına səbəb olur. Ermənistanın ərazisindən keçərək ölkəmizə daxil olan çay sistemlərində suyun keyfiyyəti, məişətdə istifadəsi və irriqasiyada tətbiqi beynəlxalq standartlara uyğun deyil. Hayastanın ərazisində fəaliyyət göstərən dağ-mədən müəssisələrindən atılan zərərli kimyəvi maddələr öz növbəsində transsərhəd çayların suları ilə Araz və Kür çaylarına, oradan isə Xəzər dənizinə tökülür. Bu isə problemin qlobal miqyasa keçdiyini göstərir.

1976-cı ildə Sovet İttifaqı tərəfindən inşa edilən və artıq texniki istismar müddətini başa vurmuş bu obyekt indiyədək Ermənistanın elektrik enerjisi ehtiyacının 30-40 faizini ödəyir. Amma bunun əvəzində regiona nə təklif edir? Bu stansiya Çernobılda istifadə olunan və indi müasir standartlara cavab verməyən "VVER-440 Model 230" reaktoru ilə işləyir. Ən önəmlisi isə modeldə radiasiyanı xaricə buraxmayan "containment" - qapalı qoruyucu strukturlar yoxdur. Yəni hər hansı bir qəza baş verdikdə ətrafa yayılan radiasiyanı saxlamaq və ya yönləndirmək mümkün deyil [3].

Daha bir məqam ondan ibarətdir ki, "Metsamor" AES seysmik aktiv ərazidə yerləşir. Keçmiş SSRİ-də, o cümlədən Ermənistan SSR-də seysmik rayonlaşdırma xəritələrinin tərtibində determinist və genetik metodlardan istifadə olunurdu, yəni seysmik təhlükənin qiymətləndirilməsi zəlzələ kataloqlarında olan tarixi və instrumental yolla yazılmış zəlzələlərin əsasında aparılırdı. 1980-ci ildə tərtib olunmuş Ermənistan SSR ərazisinin seysmik rayonlaşdırma xəritəsində burada ehtimal olunan güclü zəlzələlərin əmələ gətirəcəyi seysmik təhlükə səviyyəsinə görə iki - 12 ballı MSK-64 şkalası üzrə 7 ballı və 8 ballı zona ayrılmışdır. Qeyd edək ki, Ermənistanda fəaliyyət göstərən “Metsamor” AES-in inşasına bu xəritə tərtib olunandan çox öncə - 1973-cü ildə başlanmış və xəritə təsdiq olunandan əvvəl 1979-cu ildə istifadəyə verilmişdir. Bu isə onu göstərir ki, stansiya inşa olunarkən onun seysmik təhlükəyə dayanıqlığı ən yaxşı halda 12 ballı MSK-64 şkalası üzrə 8 bala hesablanmışdır. 1988-ci ildə Ermənistan SSR-in 1980-ci il seysmik rayonlaşdırma xəritəsində 7 bal seysmik təhlükə ilə səciyyələnən Spitak bölgəsində daha güclü 9-10 bal intensivlikli zəlzələ baş verdi [6].

1988-ci ildə zəlzələ nəticəsində dağılmış Spitak şəhəri Metsamor AES-in cəmi 75 kilometrliyində yerləşir. Seysmik təhlükəni anlayan SSRİ rəhbərliyi Spitak zəlzələsindən sonra “Metsamor” AES-in

fəaliyyəti tamamilə dayandırmışdı. Amma enerji çatışmazlığını bəhanə edən Ermənistan 1995-ci ildə ikinci bloku yenidən işə salıb. Köhnə, elementar təhlükəsizlik standartlarına cavab verməyən "Metsamor" AES yalnız region ölkələrini deyil, dünya birliyini də narahat edir. Avropa Birliyi və Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (IAEA) uzun illərdir stansiyanın bağlanmasını tövsiyə etsə də, Ermənistan bu çağırışlara qulaq asmır. Avropa İttifaqı 2000-ci ildə "Metsamor" AES-in fəaliyyətinin dayandırılması müqabilində 138 milyon avro təklif etsə belə, Ermənistan razılaşmayıb. 2016-ci ildə yenə həmin ərazidə yeni və daha böyük reaktor inşa etmək barəsində niyyətini açıqlayıb [3]. Lakin zaman göstərdi ki, Ermənistan bu niyyətində də səmimi olmayıb.

Stansiyanın təhlükəsi yalnız zəlzələ ilə bağlı deyil. Ermənistanda reaktorun soyudulması üçün lazımi səviyyədə su ehtiyatı da yoxdur. Bu, çox təhlükəli göstəricidir. Fukusima nüvə faciəsini xatırlayaq: Yaponiya texnoloji cəhətdən inkişaf etmiş ölkə olsa da, soyutma sistemlərinin sıradan çıxması radiasiyanın yayılmasına səbəb oldu. "Metsamor" üçün isə bu tip böhranın qarşısını alacaq nə infrastruktur, nə də fövqəladə hallara hazır mexanizm mövcuddur. Stansiya Rusiya, Mərkəzi Asiya ölkələri, Xəzər dənizi, Qara dəniz regionu üçün böyük fəlakətə səbəb ola bilər. "Metsamor" AES Azərbaycan və Gürcüstanla sərhədindən 120 km , İran sərhədindən 60 km, Türkiyə sərhədindən isə cəmi 16 km aralıda yerləşir. Bu isə adları çəkilən ölkələrin və milyonlarla insanın nə qədər böyük təhlükə ilə qarşı-qarşıya olduğunu sübut edir.

"Ermənistanda texniki və mənəvi cəhətdən köhnəlmiş "Metsamor" Atom Elektrik Stansiyasının fəaliyyət göstərməsi yalnız Azərbaycan və Ermənistan üçün deyil, bütün region üçün ciddi təhlükə mənbəyidir. Müxtəlif beynəlxalq təşkilatların və atom sahəsi üzrə mütəxəssislərin artıq istismar müddəti bitmiş "Metsamor" AES-i "bütün bölgə üçün təhlükə" adlandıraraq xəbərdarlıq etmələrinə baxmayaraq, Ermənistan nəinki stansiyanın fəaliyyətini dayandırmır, əksinə onun fəaliyyəti 2026-cı ilə və ondan sonrakı müddətə uzadılıb. Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsinin (Aİ Komissiyasının) Ermənistan üzrə tərəfdaşlığın implementasiyası haqqında 2022-ci il 17 may tarixli hesabatında da qeyd edilib ki, "Metsamor" AES nüvə təhlükəsizliyi üzrə beynəlxalq səviyyədə qəbul edilmiş standartlara tam cavab verəcək formada təkmilləşdirilə bilməz və bu səbəbdən onun bağlanması və təhlükəsiz şəkildə istismardan çıxarılması tələb olunur".

Ermənistanın regional ekoloji problem yarada biləcək yeni təşəbbüslərindən biri də Azərbaycanla həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə - Arazdəyən kəndində 16500 kvadratmetr sahədə illik istehsal gücü 180000 ton olan 70 milyon dollarlıq iri metallurgiya zavodunu inşa etmək istəyi idi [7]. Həmin ərazidə belə bir yeni zavodun tikilməsi və tullantıların Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına axıdılması nəinki bu çayın, eyni zamanda, Arpaçayın çirklənməsinə gətirib çıxara bilərdi. Arazdəyəndə tikilməsi planlaşdırılan zavodun fəaliyyəti nəticəsində havaya buraxılan zəhərli qaz fauna və floraya ciddi təsir göstərə bilərdi. Həmçinin metallurgiya zavodu fəaliyyətə başlayardısa, geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə səbəb olacaqdı.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan tərəfindən törədilən beynəlxalq ekoloji cinayətlərlə bağlı müraciət ünvanlayıb. Müraciət BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, Türk Dövlətləri Ombudsman və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, "Human Rights Watch" və "Amnesty International" təşkilatlarına, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına, xüsusilə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən BMT-nin Ətraf Mühit Proqramına, Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyə, Ətraf Mühitin Mühafizəsi Təşkilatına, Dünya Ətraf Mühit Mərkəzinə və BMT-nin Ətraf Mühit üzrə Xüsusi Məruzəçisinə göndərilib [8].

Məsələ ilə bağlı 2023-cü ilin (11 iyul) 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə zamanı Azərbaycan Respublikası Prezidenti bildirib "İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır. Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir" [2].

Bu istiqamətdə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş ünvanlamış, Arazdəyəndə tikiləcək metallurgiya zavodunun həm insanlara, həm də planetimizə potensial zərərli təsirləri və baş verə biləcək ekoloji fəlakətə etiraz olaraq bir sıra ölkələrin vətəndaş cəmiyyəti təşkilatları tərəfindən bəyanatlar imzalanmışdır. Azərbaycan Respublikasının haqlı saylərinin nəticəsində Azərbaycanla sərhəddə inşa olunan metallurgiya zavodunun tikintisinin Ararat şəhəri yaxınlığındakı əraziyə köçürülür.

Bu gün Ermənistanın ekoloji terroru və ətraf mühitə mənfi təsirləri davam edir, Azərbaycan Respublikası isə işğaldan azad olunmuş torpaqlarda ekoloji terrorun və ekoloji soyqırımın nəticələrin aradan qaldırmaq, gələcəkdə baş verəcək risklərin və təhdidlərin qarşısını almaq istiqamətində fəal siyasət aparır. Bu fəal siyasətin nəticəsində Arazdəyəndə metallurgiya zavodunun tikintisi dayandırılıb, "Metsamor" AES-in fəaliyyətinin doğura biləcəyi risklər və fəsadlar barəsində beynəlxalq ictimaiyyət məlumatlandırılıb, Oxçuçayın Ermənistanın dağ-mədən şirkətləri tərəfindən çirkləndirilməsi problemi beynəlxalq platformlarda müzakirə olunub və erməni ekoterrorunun fəsadlarının aradan qaldırılması istiqamətində sistemli işlər görülməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. BMT-nin İnsan Hüquqları Şurasının iclasında Ermənistanın Oxçuçayı çirkləndirməsi məsələsi qaldırılıb, 16 sentyabr 2021, https://report.az/ekologiya/bmt-nin-48-ci-insan-huquqlari-surasinin-iclasinda-oxcucay-problemi-qaldirilib/*

*2. İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib, 11 iyul 2023, https://president.az/az/articles/view/60429*

*3. Fault lines, 08.02.2011https://www.dw.com/en/armenias-nuclear-plans-rouse-fears-abroad/a-6553710*

*4. Ermənilər qəsdən Oxçuçayı çirkləndirir, 10 aprel 2021, https://azvision.az/news/256581/news.html*

*5. Laçın-Xankəndi yolunda eko-fəalların etiraz aksiyası müvəqqəti dayandırılıb, 28 aprel 2023, https://apa.az/az/sosial/lacin-xankendi-yolunda-eko-feallarin-etiraz-aksiyasi-muveqqeti-dayandirilib-foto-video-yenilenib-761925*

*6. "Metsamor" Atom Elektrik Stansiyası regionun ən böyük real təhlükə mənbəyidir, 29 aprel 2021, https://seismology.az/az/xeberler/metsamor-atom-elektrik-stansiyasi-regionun-en-boyuk-real-tehluke-menbeyidir/84*

*7. Nazirlikdən "Qızılbulaq" və "Dəmirli" yataqları barədə açıqlama, 14 dekabr 2022, https://www.adalet.az/az/posts/detail/nazirlikden-qizilbulaq-ve-demirli-yataqlari-ile-bagli-aciqlama-1671022233*

*8. Ombudsman Ermənistanın törətdiyi beynəlxalq ekoloji cinayətlərlə bağlı müraciət ünvanlayıb? 17 iyul 2023, https://report.az/xarici-siyaset/ombudsman-ermenistanin-toretdiyi-beynelxalq-ekoloji-cinayetlerle-bagli-muraciet-unvanlayib/*

*9. Şuşada Rusiya sülhməramlılarının məsuliyyət zonasında etiraz aksiyası davam edir, 12 dekabr 2022, https://az.trend.az/azerbaijan/politics/3680670.html*

## XÜLASƏ

1988-ci ildən Ermənistanın Azərbaycana qarşı ərazi iddiasını reallaşdırmaq məqsədilə apardığı müharibə nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal edilmişdi. Elə həmin tarixdən də Ermənistanın Azərbaycana qarşı ekoloji terroru, ekoloji soyqırımı başlayıb. Müəyyən bir şəxs, qrup və ya ölkə tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə bilərəkdən vurulan ziyan ekoloji terror hesab edilir. Ekoloji soyqırım (ekosid) isə ətraf mühitin insanlar tərəfindən məhv edilməsidir. Hazırda dünyada bu ciddi problemlərlə qarşı-qarşıya olan ölkələrdən biri də Azərbaycan Respublikasıdır.



**Açar sözlər:** *ekoloji terror, ekoloji soyqırım, ekosid, ekofəallar, Metsamor, Oxçuçay, Espo Konvensiyası.*



## SUMMARY

Since 1988, as a result of the war waged by Armenia against Azerbaijan in order to realize its territorial claims, 20% of Azerbaijani lands have been occupied. From the same date, Armenia's ecological terrorism and ecological genocide against Azerbaijan began. The deliberate damage caused by a certain person, group or country by harming the flora and fauna of another country and destroying its natural resources is considered ecological terrorism. Ecological genocide (ecocide) is the destruction of the environment by humans. Currently, one of the countries in the world facing these serious problems is the Republic of Azerbaijan.



**Keywords:** *ecological terrorism, ecological genocide, ecocide, ecoactivists, Metsamor, Okchuchay, Espoo Convention.*



## РЕЗЮМЕ

С 1988 года в результате войны, развязанной Арменией против Азербайджана с целью реализации своих территориальных претензий, было оккупировано 20% азербайджанских земель. С этого же дня начался экологический терроризм и экологический геноцид Армении против Азербайджана. Преднамеренное нанесение ущерба определенным лицом, группой или страной путем нанесения вреда флоре и фауне другой страны и уничтожения ее природных ресурсов считается экологическим терроризмом. Экологический геноцид (экоцид) — разрушение окружающей среды человеком. В настоящее время одной из стран мира, сталкивающихся с этими серьезными проблемами, является Азербайджанская Республика.



**Ключевые слова:** *экологический терроризм, экологический геноцид, экоцид, экоактивисты, Мецамор, Окчучай, Конвенция Эспо.*